*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZIRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 11 oktyabr 2014-cü il | № 77 (1894) | Qiyməti 25 qəpik


## Rəsmi xronika

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Böyük Britaniya Baş nazirinin ticarət üzrə səfiri, Lordlar Palatasının üzvü Lord Risbinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli əlaqələrin səviyyəsindən məmnunluq ifadə olundu, bu əlaqələrin genişləndiyi və yaxşı perspektivlərinin olduğu vurğulandı.*

*Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsində parlamentlərarası əməkdaşlığın önəmi qeyd olundu, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

✓ *Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.*

*Dövlətimizin başçısı Vladimir Putini ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.*

*Rusiya Federasiyasının Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.*

*Dövlət başçıları ölkələrimiz arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, yüksək səviyyədə görüşlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından önəmini qeyd edib, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini bildiriblər.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də "Formula-1"in rəhbəri Bernard Ekklstounu qəbul edib.*

*Görüşdə ölkəmizdə idmanın inkişafına dövlət səviyyəsində göstərilən diqqətin önəmi qeyd olundu, Azərbaycanın mötəbər beynəlxalq idman tədbirlərinin keçirilməsi üçün artıq yaxşı təcrübəyə malik olduğu vurğulandı.*

*Söhbət zamanı 2016-cı ildə ölkəmizdə keçirilməsi nəzərdə tutulan "Formula-1" yarışının da yüksək səviyyədə təşkil olunacağına əminlik ifadə edildi, bu tədbirin Azərbaycanın idman sahəsində beynəlxalq əməkdaşlığının daha da genişləndirilməsi işinə xidmət edəcəyi bildirildi.*

* * *

✓ *Oktyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.*

*İclasda 2014-cü ilin üçüncü rübü və ilin doqquz ayının sosial-iqtisadi yekunları müzakirə edilib. Giriş nitqi ilə çıxış edən dövlət başçısı ilin doqquz ayının iqtisadi nəticələrini yüksək dəyərləndirib.*

**AzərTAc-ın materialları əsasında**

# Azərbaycan Prezidenti İlham Əliyev Litvanın Milli Müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Litva Respublikasının Milli Müdafiə naziri Yuozas Olekasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

Görüşdə Azərbaycan Respublikası ilə Litva Respublikası arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluq ifadə olundu, Müdafiə nazirlikləri arasında əməkdaşlığın bu əlaqələrin genişləndirilməsindəki rolu qeyd edildi.

Söhbət zamanı yüksək səviyyəli görüşlərin ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi baxımından önəmi vurğulandı, Litva Respublikasının Milli Müdafiə naziri Yuozas Olekasın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyi bildirildi.

**AzərTAc**

# Müdafiə Nazirliyində 2014-cü ilin doqquz ayının yekunlarına həsr olunmuş toplantı keçirilib

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sədrliyi ilə 2014-cü ilin doqquz ayının sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Silahlı Qüvvələr qarşısında qoyulan tapşırıqların həlli məqsədilə oktyabrın 10-da Müdafiə Nazirliyində hesabat dövrünün nəticələrinə dair toplantı keçirilib.***

Toplantıda Müdafiə nazirinin müavinləri, Silahlı Qüvvələrin növləri və qoşun qismləri komandanları, Müdafiə Nazirliyinin baş idarə və idarə rəisləri, birlik komandirləri iştirak ediblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən müşavirədə vəzifəli şəxslərin məruzələri dinlənildikdən sonra Silahlı Qüvvələrin növlərinin çöl, uçuş və dəniz təlim bacarıqları, döyüş və əməliyyat hazırlığı, müdafiənin gücləndirilməsi, qoşun və qüvvələrin hərtərəfli təminatı, qoşunların və silahların idarəetmə sistemi, kadrların hazırlığı və şəxsi heyətin sosial müdafiəsi, nizam-intizamın daha da yüksəldilməsi məsələləri geniş təhlil edilərək istiqamətlər üzrə vəzifələr müzakirə olunub.

Silahlı Qüvvələrdə görülən işlər və onların təhlili barədə geniş məruzə ilə çıxış edən Müdafiə naziri Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən qarşıda duran məsələlərin yerinə yetirilməsi üzrə müvafiq göstərişlər verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Qondarma Dağlıq Qarabağ rejiminin Azərbaycan vətəndaşları üzərində məhkəmə işi təşkil etməyə heç bir hüquqi əsası yoxdur

***Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidməti Ermənistan kütləvi informasiya vasitələrinin Ermənistan tərəfindən girov götürülmüş Şahbaz Quliyev və Dilqəm Əsgərov üzərində qondarma məhkəmə işinin təşkil olunacağı ilə bağlı məlumatına dair açıqlama yayıb.***

Açıqlamada deyilir ki, qondarma Dağlıq Qarabağ rejiminin Azərbaycan vətəndaşları üzərində məhkəmə işi təşkil etməyə heç bir hüquqi əsası yoxdur və bu qondarma məhkəmə tərəfindən qəbul ediləcək "qərar" heç bir hüquqi gücə malik ola bilməz.

Öz doğmalarının qəbirlərini ziyarət edən Şahbaz Quliyev və Dilqəm Əsgərov girov götürülüblər və uydurma istintaq prosesi çərçivəsində işgəncələrə məruz qoyulublar. Həsən Həsənov isə Ermənistan silahlı qüvvələri tərəfindən vəhşicəsinə qətlə yetirilib. Ermənistanın bu kimi əməlləri beynəlxalq humanitar hüquq və Cenevrə konvensiyalarının müddəaları ilə bilavasitə ziddiyyət təşkil edir.

Azərbaycan Respublikası ərazisində Azərbaycan Respublikası vətəndaşlarının sərbəst hərəkətinə Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş xüsusi hallar istisna olmaqla, heç kim tərəfindən məhdudiyyət və ya qadağa qoyula bilməz.

Ermənistanın Azərbaycana qarşı işğal və təcavüz əməllərinin ört-basdır edilməsi məqsədilə Azərbaycanın işğal olunmuş ərazilərində qondarma Dağlıq Qarabağ rejimi yaradılmışdır. Ermənistan Azərbaycana qarşı işğal və təcavüz əməlləri ilə beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini və Helsinki Yekun Aktını kobud şəkildə pozub və buna görə bilavasitə məsuliyyət daşıyır.

Azərbaycan Respublikası tərəfindən Şahbaz Quliyev və Dilqəm Əsgərovun azad edilməsi üçün beynəlxalq təşkilatlar, ATƏT-in Minsk qrupunun həmsədrləri və Beynəlxalq Qızıl Xaç Komitəsi ilə iş davam etdirilir.

**AzərTAc**

# Mərakeşin "İslah" qəzeti Dağlıq Qarabağ münaqişəsi barədə yazır

***Mərakeşin geniş oxucu kütləsinə malik "İslah" qəzetində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yazı dərc edilib.***

Azərbaycanın Mərakeşdəki səfirliyindən AzərTAc-a bildiriblər ki, məqalədə Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verilir. Bildirilir ki, dünya birliyi Ermənistanın işğalçılıq siyasətini dəfələrlə pisləməsinə, beynəlxalq təşkilatlar tərəfindən bununla bağlı bir sıra qətnamələr və digər sənədlərin qəbul edilməsinə baxmayaraq, ermənilərin qatı millətçi və işğalçılıq siyasəti bu günə qədər davam edir. Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal edilib, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Məqalədə Mərakeş-Azərbaycan əlaqələrindən də bəhs edilir. Müəllif hər iki ölkənin ərazi bütövlüyü problemi ilə üzləşdiyini, Mərakeşin Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini, Azərbaycanın isə Qərbi Səhra məsələsində Mərakeşin mövqeyini dəstəklədiyini qeyd edir. O, hər iki ölkənin beynəlxalq təşkilatlarda bir-birinə qarşılıqlı dəstək nümayiş etdirdiyini vurğulayır.

"İslah" qəzetinin eyni buraxılışında, həmçinin Azərbaycan Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan sərhədində erməni qoşunları tərəfindən həyata keçirilən təxribat xarakterli əməllər və atəşkəs rejiminin pozulmasına yönəlmiş təcavüzkar hərəkətlərlə bağlı bəyanatı da dərc olunub.

# Dağlıq Qarabağ münaqişəsinin həlli prosesindəki hazırkı vəziyyət regionda sülh və sabitlik üçün təhlükəlidir

ATƏT Parlament Assambleyasının Cenevrədə keçirilən payız sessiyasında qurumun siyasi məsələlər və təhlükəsizlik komitəsinin sədr müavini, Büro üzvü, Milli Məclisin deputatı Azay Quliyev çıxış edərək ATƏT-ə verilən mandatın bu təşkilat tərəfindən səmərəli yerinə yetirilməsinə əngəl yaradan bir çox yeni problemlərin mövcud olduğunu deyib. O, bu problemlər arasında Helsinki Yekun Aktının təməl prinsiplərinin selektiv təhrifini, beynəlxalq münasibətlərdə güc və təhdid hallarının sayının artmasını, həmçinin ATƏT-ə üzv ölkələrdə uzun sürən münaqişələrin yer aldığını qeyd edib.

A.Quliyev deyib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində yaranmış hazırkı durğun vəziyyət regionda sülh və sabitlik üçün çox təhlükəlidir. Ermənistan ordusunun işğal olunmuş torpaqlardan çıxarılması və Azərbaycan əhalisinin öz evlərinə geri qayıtmaları bu münaqişənin həlli üçün irəliyə addım olar. Bu, həmçinin Azərbaycanın Dağlıq Qarabağ regionunun azərbaycanlı və erməni icmaları arasında etimad mühitinin yaranmasına kömək edəcək. Bu isə özlüyündə davamlı sülhyaratma istiqamətində çox önəmli amildir. Hazırda dörd mindən artıq azərbaycanlı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində əsir götürülüb və itkin düşüb. Onların 600-ə yaxını qadınlar və yaşlılardır.

A.Quliyev bildirib ki, təhlükəsizliyimizə olan təhdidlər bizi bir-birimizdən ayırmamalıdır, əksinə, bunlar bizi əvvəl olduğundan daha çox birləşdirməlidir. Biz resurslarımız və güclü qətiyyətimizlə bütün problemlərin səmərəli həllinə nail ola, ATƏT ərazisində sülh və təhlükəsizliyi təmin edə bilərik.

# Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadənin rəhbərliyi altında Müdafiə Nazirliyində müşavirə keçirilib



***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sədrliyi ilə 2014-cü ilin doqquz ayının sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasın nəticələri, ordu quruculuğunun inkişaf etdirilməsi sahəsində qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadənin rəhbərliyi altında oktyabrın 10-da Müdafiə Nazirliyində müşavirə keçirilib.***

Toplantıda Baş nazirin müavini Abid Şərifov, Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Müdafiə Sənayesi naziri Yavər Camalov, Maliyyə naziri Samir Şərifov, Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasov, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Qərib Məmmədov, Müdafiə nazirinin müavinləri və digər vəzifəli şəxslər iştirak ediblər.

Müşavirədə Silahlı Qüvvələrin təchizatında olan döyüş texnikasının, silah və sursatların modernləşdirilməsi, o cümlədən ordunun müasir, yüksək dəqiqlikli, uzaqvuran silah və sursatlar, yeni texnologiyalı avadanlıqlarla təmin olunması imkanları, hərbi qulluqçuların sosial-məişət şəraitlərinin yaxşılaşdırılması və digər məsələlər müzakirə edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Respublikasının Müdafiə naziri Litva Respublikasının Milli Müdafiə nazirini qəbul edib

***Oktyabrın 8-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Litva Respublikasının Milli Müdafiə naziri cənab Yuozas Olekası qəbul edib.***

Y.Olekasın rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ümummilli liderimiz Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın, sonra isə Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

Sonra Müdafiə Nazirliyində Y.Olekasın rəsmi qarşılanma mərasimi keçirilib. Hər iki ölkənin dövlət bayraqları qaldırılıb, Litvanın Milli Müdafiə nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Fəxri qarovulun rəisi raport verdikdən sonra dövlət himnləri səsləndirilib. Rəsmi protokola uyğun olaraq qonaq Şərəf kitabını imzalayıb.

Nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə keçirilən görüşdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq Azərbaycan ilə Litva arasında hərbi əməkdaşlığın həm ikitərəfli, həm də NATO-nun müxtəlif proqramları çərçivəsində həyata keçirildiyini, bu əlaqələrin dostluq münasibətləri üzərində qurulduğunu və daim inkişaf etdirildiyini qeyd edib.



Regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri general-polkovnik Zakir Həsənov Ermənistanın bölgədəki sabitliyə əsas təhlükə yaratdığını, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normalarına və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun həllinə nail olunmasının vacibliyini vurğulayıb.




Cənab Y.Olekas öz növbəsində dövlətlərimizin əlaqələrinin dostluq münasibətlərinə əsaslandığını, Litvanın Avropada Azərbaycanın vacib tərəfdaşı olduğunu və əməkdaşlığın daha da intensiv inkişaf etdirilməsinin zəruriliyini xüsusi qeyd edib.

Sonra ölkələrimizin yerləşdiyi regionlarda təhlükəsizlik məsələləri, ikitərəfli əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Vüsal HƏMİDOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Müdafiə naziri Beynəlxalq Müəllimlər Günü münasibətilə xüsusi təyinatlı təhsil müəssisələrinin pedaqoji heyətini təbrik edib

Müdafiə naziri general-polkovnik Zakir Həsənov 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə Müdafiə Nazirliyinin tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrində çalışan professor-müəllim heyətini təbrik edib.

Müdafiə nazirinin əmrinə əsasən, hərbi təhsilin inkişafı və bu sahədə xidmətlərinə görə fəqlənən pedaqoji kollektivin bir qrup üzvünə təşəkkür elan edilib, fəxri fərman və mükafatlar təqdim olunub.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

Oktyabrın 9-da saat 14.35 radələrində erməni silahlı bölmələri atəşkəs rejimini növbəti dəfə pozaraq mövqelərimizi atəşə tutublar.

Hadisə nəticəsində Silahlı Qüvvələrimizin 1990-cı il təvəllüdlü, Ağdam rayonundan hərbi xidmətə çağırılmış müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Əhmədov Tural Məhərrəm oğlu döyüş mövqeyində düşmən atəşinin qarşısını alarkən həlak olub.

Hadisə ilə bağlı cinayət işi başlanıb. Hərbi Prokurorluq tərəfindən faktla əlaqədar araşdırma aparılır.

Müdafiə Nazirliyinin rəhbərliyi dünyasını dəyişmiş əsgərimizin doğmalarına dərin hüznlə başsağlığı verir və səbr diləyir.

***8 oktyabr 2014-ü il.***

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Goranboy rayonunun Tapqaraqoyunlu, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***9 oktyabr 2014-cü il.***

Erməni silahlı bölmələri dünən Ağdam rayonunun Qaraqaşlı kəndi yaxınlığında və Goranboy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

***10 oktyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 22 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Noyemberyan rayonunun Barekamavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Tərtər rayonunun Qızıl Oba, Çiləbürt, Göyarx, Çaylı, Füzuli rayonunun Horadiz, Aşağı Veysəlli, Ağdam rayonunun Cəvahirli kəndləri yaxınlığında, Xocavənd və Goranboy rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Oktyabrın 6-dan 16-dək Budapeşt şəhərində (Macarıstan) müəllimlər üçün təkmilləşdirilmiş hərbi terminologiya seminarı və 17-dək İstanbul şəhərində (Türkiyə) Azərbaycan Hərbi Dəniz Qüvvələri şəxsi heyətinin Türkiyə Hərbi Dəniz Qüvvələri Tərsanələrində stajkeçmə təlimi keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

# Təmas xəttində monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 9-da Füzuli rayonu Aşağı Veysəlli kəndinin yaxınlığındakı qoşunların təmas xəttində monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, onun səhra köməkçiləri Yevgeni Şarov və Peter Svedberq keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Jiri Aberle keçiriblər.

# Litva Respublikasının Milli Müdafiə naziri Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olub

***Oktyabrın 9-da Litva Respublikasının Milli Müdafiə naziri cənab Yuozas Olekasın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfəri çərçivəsində Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olub.***



Qonaqlar ümummilli liderimiz Heydər Əliyevin hospitalın ərazisində ucaldılmış büstü önünə gül dəstəsi qoyaraq, öz ehtiramlarını ifadə ediblər.

Sonra Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev nümayəndə heyətinə hospitalın yaranma tarixi, onun fəaliyyəti, Silahlı Qüvvələrin şəxsi heyətinin sağlamlıq vəziyyətinin qorunması və hərbi qulluqçuların tibbi təminatının müasir tələblərə uyğun təşkil edilməsi, Azərbaycan hərb təbabətinin inkişaf perspektivləri, hərbi həkimlərin hazırlanması imkanları və ümumi maraq kəsb edən digər məsələlər barədə məlumat verib.

Hospitalın akt zalında qonaqlara tibb müəssisəsinin yarandığı gündən hazırkı dövrədək inkişafını əhatə edən qısametrajlı film nümayiş etdirilib.



Hospitalın bölmə və şöbələrində yaradılmış şəraitlə tanış olan cənab Y.Olekas yaralılara və xəstələrə ixtisaslı tibbi yardımın göstərilməsi üçün nəzərdə tutulan müasir tibbi avadanlıqlarla təchiz edilmiş müalicə korpuslarına da baş çəkib və gördüklərindən çox məmnun qaldığını bildirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Sülhməramlılarımızın yolasalma mərasimi keçirilib

***Oktyabrın 8-də Bakıda yerləşən "N" hərbi hissəsində Əfqanıstan İslam Respublikasında Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) tərkibində fəaliyyət göstərən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 23 nəfərdən ibarət qrupunun plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yolasalma mərasimi keçirildi. Tədbirdə çıxış edən hərbi hissə komandiri əsgərlərimizə xoş arzularını çatdırdı, onlara şərəfli missiyalarında uğurlar arzuladı. Eyni zamanda sülhməramlı əməliyyatlarda iştirak edərkən təhlükəsizlik qaydalarına əməl etməyi, Azərbaycanın adını və bayrağını Əfqanıstan İslam Respublikasında da uca tutmağı tövsiyə etdi.***



Bizim sülhməramlı kontingent 2002-ci ildən Əfqanıstan İslam Respublikasında sülhməramlı əməliyyatlarda iştirak edir. Hazırda bu ölkədə bizim 94 hərbi qulluqçumuz xidmət edir. Onlardan iki nəfər mühəndis-istehkam xidməti zabiti Türkiyə sülhməramlı kontingentinin tərkibində, iki həkimimiz orada poliklinikada həm yerli əhaliyə, həm də sülhməramlı kontingentin əsgərlərinə tibbi yardım göstərirlər.

- Azərbaycan sülhməramlıları hər üç aydan bir rotasiya qaydasında dəyişmə həyata keçirir, - sülhməramlı taborun qərargah rəisi zabit Teyfur Rüstəmov bizimlə söhbətində dedi. - Sülhməramlı missiyada kimlər iştirak etmək istəyirsə, müxtəlif yoxlamalardan, o cümlədən ciddi tibbi müayinədən keçirilirlər. Yəni, əslində tabora əsgərlər könüllülük prinsipi əsasında qəbul edilirlər. Həmin əsgərlərdən daha bacarıqlı döyüşçülər seçilərək müvafiq məşğələlərə cəlb edilir, beynəlxalq hüquq normaları, sülhməramlı əməliyyatlar zamanı fəaliyyət qaydaları, o cümlədən sülhməramlı missiyaya göndərildikləri ölkənin adət-ənənələri, tarixi, mədəniyyəti barədə məlumatlandırılırlar.

Əfqanıstanda əmin-amanlığın təmin edilməsinə öz töhfəsini vermiş, hazırlığı və peşəkarlığı ilə ölkəmizə şərəf gətirmiş neçə-neçə Vətən oğlu sülhməramlı missiyada nümunəvi xidmətinə görə medalla təltif edilib.

Bir qrup əsgərimiz rotasiya qaydasında oradakı sülhməramlı missiyasını başa vurub Azərbaycana qayıdacaq. Onu da qeyd edim ki, xidmətini ləyaqətlə yerinə yetirmiş bir qrup əsgər - Atabəy Cəfərli, Elnur İsgəndərov, Məhərrəm Mayılov hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılacaqlar.

Yolasalma mərasimində iştirak edən Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Abdulla Qurbaninin çıxışı sülhməramlı döyüşçülərimiz tərəfindən dərin maraqla qarşılandı. Polkovnik Abdulla Qurbani üzünü Əfqanıstana yola düşən sülhməramlı əsgərlərə tutaraq dedi:

- Siz başqa bir dövlətdə Azərbaycan dövlətini, xalqını təmsil edəcəksiniz. Artıq bir neçə ildir ki, sülhməramlılarımız xarici dövlətlərdə xeyirxah missiyanı şərəflə yerinə yetirirlər. Həmişə Azərbaycan oğullarının xoş soraqlarını almışıq. Onlar xalqımıza, dövlətimizə, Silahlı Qüvvələrimizə başucalığı gətiriblər. İnanırıq ki, siz də bu ənənənin davamçıları olacaq, Azərbaycanın bayrağını daim yüksəkliklərdə saxlayacaqsınız.

Sonra polkovnik Abdulla Qurbani vətənpərvərlik marş və mahnıları yazılmış diskləri, ümummilli liderimiz Heydər Əliyevə həsr etdiyi təzə işıq üzü görmüş nəfis tərtibatlı kitabını, həmçinin xalq şairi Məmməd Arazın kitablarını sülhməramlılarımıza hədiyyə etdi.

Sonda Əfqanıstan İslam Respublikasına yola düşən şərəfli missiyanın daşıyıcıları ilə kollektiv xatirə şəkli çəkildi.

**Əbülfət QASIMOV, "Azərbaycan Ordusu"**

# Müdafiə nazirinin əmri ilə şəhid Allahverdi Baxışlı medalla təltif edilib





Sentyabrın 27-də erməni silahlı bölmələrinin atəşkəs rejimini pozması nəticəsində döyüş postunda şəhid olmuş Silahlı Qüvvələrimizin zabiti leytenant Allahverdi Əbülfəz oğlu Baxışlı Azərbaycan Respublikası Prezidenti adından Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunub.

Oktyabrın 5-də Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları, Hacıqabul rayon İcra Hakimiyyəti və rayon ictimaiyyətinin nümayəndələri şəhid zabitimizin evində olublar.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Abdulla Qurbani Vətən uğrunda həlak olan gənc zabitin qısa, lakin şərəfli ömür yolundan danışıb və onun təltif edildiyi medalı şəhidin anası Solmaz xanıma təqdim edib.

Şəhidin dayısı Səmid Ələkbərov, Müdafiə Nazirliyinin zabiti polkovnik Əlizadə Babayev, Daxili Qoşunların zabiti polkovnik Etibar İlyasov Vətən yolunda şəhid olanların qəhrəmanlıq nümunələrinin heç vaxt unudulmayacağını, onların bizim qəlbimizdə əbədi yaşayacağını, şəhid ailələrinin dövlətin qayğısı ilə əhatə olunduğunu, şəhidlərimizin qisaslarının mütləq alınacağını diqqətə çatdırıblar.

Mərasimdə iştirak edən el ağsaqqalı Seyidəli Abbasov nə qədər ağır da olsa qürur hissi keçirdiyini, ölkə başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə göstərdikləri diqqətə görə minnətdarlığını bildirib.

Mərasim Hacıqabul Şəhidlər xiyabanının ziyarət olunması ilə başa çatıb.

Müdafiə Nazirliyinin rəhbərliyi bir daha şəhidin yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# İlk milli briqadanın yaranma günü qeyd olundu

***Müstəqil Azərbaycanın ilk briqadasının yarandığı gün - 9 oktyabr hərb tariximizin şanlı səhifələrinə qızıl hərflərlə həkk olundu. Dağlıq Qarabağ münaqişəsi başlayanda, ermənilər torpaqlarımıza iddia qaldıranda, bir sözlə, Vətənin dar günündə yüzlərlə Azərbaycan oğlu könüllü müdafiəyə qalxdı. Azadlığını, müstəqilliyini yenicə qazanan Azərbaycan olduqca ağır, öz milli ordusunu - ilk milli briqadasını çətin şəraitdə yaratdı.***

"N" saylı briqada haqqında qısa xatırlatma: briqada 9 oktyabr 1991-ci ildə Şıx qəsəbəsində sovet ordusuna məxsus hərbi hissənin əsasında qurulub. Hərbi hissə ilk döyüşünü 11 dekabr 1991-ci ildə Kərkicahan kəndi uğrunda aparıb. Hərbi hissənin şəxsi heyətinin əsasını vaxtilə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan C.Naxçıvanski adına Hərbi Liseyin məzunları təşkil edib. Müdafiə nazirinin 10 mart 1992-ci il tarixli əmri ilə sovet ordusuna məxsus hərbi hissə "N" saylı briqada adlandırılıb. Briqada Şuşa rayonunun kəndlərinin, Ağdərənin, Tərtərin, Xocalının, Kəlbəcərin müdafiəsi uğrunda döyüşlərdə, Daşaltı əməliyyatında, Füzuli və Murovdağ istiqamətindəki hücum əməliyyatlarında iştirak edib. Briqada Laçın və Kəlbəcər rayonlarında gedən ağır döyüşlərdə itkilər versə də, yüksək əzmkarlıq və rəşadət göstərib. Ümumiyyətlə, briqada Qarabağ müharibəsində ən gərgin nöqtələrdə vuruşaraq düşmənə qarşı qəhrəmanlıqla mübarizə aparıb.

Briqadanın şəxsi heyətindən 4 nəfəri "Azərbaycan Milli Qəhrəmanı" adına və 11 nəfəri "Azərbaycan Bayrağı" ordeninə, 18 nəfəri isə "İgidliyə görə" medalları ilə təltif olunub.

Hər il 9 oktyabrda "N" saylı briqadanın yaranma tarixi komandirlərin, keçmiş döyüşçülərin və hazırda xidmətdə olan zabitlərin iştirakı ilə qeyd olunur. Onlar bu il də ənənələrinə sadiq qalaraq briqadanın yaranma günü ilə əlaqədar tədbir keçirdilər. Tədbirdə "Müharibə Veteranları və Beynəlmiləlçi Hərbçilər" İctimai Birliyinin üzvləri, İkinci Dünya müharibəsi, əmək və Qarabağ müharibəsi veteranları, Müdafiə Nazirliyinin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etdilər.



Veteranlar əvvəlcə Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoydular.

Sonra Şəhidlər xiyabanına gələn veteranlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anaraq, məzarları üzərinə gül, "Əbədi məşəl" abidəsinin önünə əklil qoydular.

Azərbaycanın ərazi bütövlüyü uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin ruhunun bir dəqiqəlik sükutla yad edilməsindən sonra tədbiri giriş sözü ilə açan hərbi hissənin sabiq komandiri, İctimai Birliyin sədri, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə briqadanın keçdiyi şanlı döyüş yolu haqqında ətraflı məlumat verdi:

- Briqada Laçın və Kəlbəcərin müdafiəsi uğrunda gedən döyüşlər zamanı dağlıq ərazilərdə mövqe döyüşləri apararaq iki ay müvəffəqiyyətlə müdafiə olunub, 60 minə yaxın dinc sakinin təxliyyə edilməsinə şərait yaradıb. Biz veteranlar Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cənablarının müharibə əmri olarsa, torpaqlarımızı erməni işğalçılarından azad etməyə hər an hazırıq.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin nümayəndəsi polkovnik İslam Gəncəliyev çıxış edərək qeyd etdi ki, bu briqadanın keçdiyi qəhrəmanlıq dolu döyüş yolu şərəfli bir tarixdir və gənclərə, Vətənin müdafiəsində dayanan hər bir kəsə örnəkdir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Hərbi hissənin bayramı



***"N" hərbi hissəsinin ildönümünə həsr edilmiş təntənəli mərasimə start verilir. Döyüş ənənələrinə uyğun olaraq hərbi hissənin qürur mənbəyi və şərəfi sayılan döyüş bayrağı mətin addımlarla addımlayan ucaboylu bayraqdarlar tərəfindən meydançaya gətirilir. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin nümunəvi hərbi orkestrinin müşayiəti ilə şəxsi heyətin ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndirilir...***

Hərbi hissə keşməkeşli bir dövrdə, 1992-ci ilin oktyabrın 1-də yaradılmışdı. O zaman düşmən havadarlarına arxalanaraq ərazilərimizə qarşı təcavüzünü genişləndirməkdəydi. Həm Qarabağda, həm də Ermənistanla sərhəd ərazilərdə, Qubadlıda, Zəngilanda, Qazaxda, Tovuzda, Gədəbəydə ağır döyüşlər səngimək bilmirdi.

Öncə Vətən torpaqlarını müdafiə məqsədilə silaha sarılan yurdsevər soydaşlarımız ərazi özünümüdafiə taborlarında birləşərək şəhər və kəndlərimizi düşməndən qoruyurdular. Sonra bu taborlar daha mütəşəkkil hərəkət etmək üçün hərbi hissələrdə birləşdirildi. Həmin vaxt "N" hərbi hissəsi də Qubadlı və Laçın rayonlarında yetərincə geniş bir ərazini müdafiə etmək naminə yaradıldı.

Hərbi hissənin döyüş yolu keşməkeşli olsa da, qürur doğuran məqamlar yetərincədir. Həmin qanlı-qadalı illərdə hərbi hissədə xidmət etdiyimdən bir çox hadisələrin canlı şahidiyəm. Qubadlı və Laçın rayonlarında (həmin rayonlar müəyyən səbəblərdən işğal altına düşdü) hərbi hissənin bölmələri düşmənə qarşı dəfələrlə uğurlu əməliyyatlar apardı. Yüzlərlə Azərbaycan övladı həmin döyüşlərdə Vətən naminə canından keçdi. Novlu, Əliquluuşağı, Seytas, Göyyal, Saldaş, Güləbird, Malxələf, Mazutlu, Hoçaz, Zabux yaxınlığındakı döyüşlərdə Azərbaycanın cəsur oğulları ermənilərə sarsıdıcı zərbələr endirdilər. Təkcə bunlara görə şəxsi heyət üçün hərbi hissə ilə iftixar hissi keçirməyə dəyər.



Tam komplektləşdirilmiş bir birləşmənin qorumalı olduğu ərazidən qat-qat artıq ərazinin müdafiəsində dayansa da, dar məqamda dəfələrlə hərbi hissənin bölmələri Ağdama, Cəbrayıla, Füzuliyə, Zəngilana köməyə getmişdi. Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyev, İlyas və Valeh Cabbarovlar, İlham Məmmədov, Əlövsət Vəliyev kimi oğullar cəsurluğu, igidliyi ilə nəinki hərbi hissədə, bütövlükdə Azərbaycanda şöhrət qazanmışdılar. Onların göstərdiyi şücaət bu gün də döyüşçülərimiz üçün örnəkdir.

Hərbi hissənin ildönümünə həsr edilmiş tədbirdə çıxış edən zabitlər Oqtay Hüseynov, Elçin Kərimov hərbi hissənin keçdiyi döyüş yoluna nəzər saldı, bu gün ordumuzun əldə etdiyi nailiyyətləri hərbi hissənin timsalında bariz nümunələrlə mərasim iştirakçılarının diqqətinə çatdırdılar.

Hərbi hissənin bayramına Bakıdan Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini, əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin nümunəvi hərbi orkestri ilə birgə gəlmişdi. Həmişə olduğu kimi, bu dəfə də polkovnik Qurbaninin çıxışı hərbi hissənin şəxsi heyətində böyük ruh yüksəkliyi yaratdı.



Hərbi hissənin ildönümünə Füzuli rayon İcra Hakimiyyətinin nümayəndəsi də qatılmışdı. Rayon rəhbərliyi adından özlərilə gətirdikləri televizoru hərbi hissənin şəxsi heyətinə hədiyyə etdilər. Təntənəli mərasimdə şəxsi heyətin mükafatlandırılması barədə hərbi hissə komandirinin əmri oxundu. Nümunəvi xidmətilə fərqlənən zabitlərdən Rövşən Şərifxanov, Musa Hüseynov, Eldəniz Gözəlov, Fərman Rəhimov, İlqar Məmmədov və başqaları fəxri fərmanla mükafatlandırıldılar. Əsgərlərdən Təbriz Məmmədov, Yusif Yusifzadə, Ramazan Çöpsiyev, Ceyhun Quliyev, Arif Rüstəmov, Çingiz Qasımzadə, Şamxal Fətəliyev, Cümşüd Hacılı və başqalarına qiymətli hədiyyələr təqdim edildi. Döyüşçülərdən Telman Hadızadə, Elvin Babayev, Elməddin Məmmədzadə, Nurlan Əmrahlı, Nurlan Həsənli, Faiq Həşimov, Fuad Zərbəliyev, İlyas Abışov və başqalarının valideynlərinə hərbi hissə komandanlığı adından təşəkkür məktubu göndərildi.

Mərasimin sonunda hərbi hissə kəşfiyyatçılarının hazırladığı qaydasız döyüş elementlərilə dolu səhnə göstərildi. Səhnənin sonunda fiziki cəhətdən güclü döyüşçülər qala quraraq üçrəngli bayrağımızı ucaya qaldırdılar.

Hərbi hissənin ildönümünə həsr edilmiş bədii hissədə şəxsi heyət üçün bədii özfəaliyyət kollektivləri konsert proqramı ilə çıxış etdilər.

**Ə.MƏHƏRRƏMOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## ATƏT Ukraynanın şərqində patrul nəzarətinə başlayıb




ATƏT-in monitorinq qrupu Ukraynanın şərqində hökumət qoşunları ilə separatçıların döyüş təmas xəttində patrul nəzarəti həyata keçirməyə başlayıb.

"Frans Press" agentliyinin yaydığı məlumata görə, NATO Rusiya qoşunlarının Ukrayna ərazisində çoxdan yerləşdiyini təsdiqləməkdə davam edir. Agentlik alyans təmsilçisinə istinadla xəbər verir ki, ötən həftə qoşunların əsas hissəsinin çıxarılmasına baxmayaraq, Ukraynanın şərqində yüzlərlə rus əsgəri qalır. Rəsmi Moskva isə öz növbəsində bu qəbildən olan bütün informasiyaları əsassız sayır və təkzib edir.

## AŞPA-da erməni rüsvayçılığı



Ermənistan mətbuatı keçən həftə Ermənistan nümayəndə heyətinin Avropa Şurası Parlament Assambleyasının iclasından qovulması məsələsinə ciddi diqqət yetirib.

"Joğovurd" qəzeti AŞPA-da Ermənistan nümayəndə heyətinə başçılıq edən Ermine Naqdalyanın Strasburqda üzləşdiyi biabırçılıqdan bəhs edib: "Keçən həftə Strasburqda baş verənlər sadəcə biabırçılıq idi və bunun üçün ən azı istefa vermək lazım idi". Müəllifin yazdığına görə, Ermine Naqdalyan AŞPA-nın siyasət komissiyasında müzakirəyə qoyulan "Dağlıq Qarabağda və Azərbaycanın digər işğal olunmuş torpaqlarında zorakılıq hallarının artması" adlı məruzə-qətnamənin müzakirəsi zamanı erməni arvad tərbiyəsiz ifadələr işlədib və buna görə də Ermənistan nümayəndə heyəti zaldan qovulub.

## Aramsız yağışlar Fransanın cənub bölgəsini iflic edib



Oktyabrın 6-dan 7-nə keçən gecə güclü küləklə müşayiət olunan aramsız yağışlar Fransanın cənub bölgəsini yenidən iflic vəziyyətinə salıb.

Yağışların əmələ gətirdiyi daşqınlar üç departamentin bir çox yaşayış qəsəbələrində yer sürüşməsinə səbəb olub, bəzi yerlərdə magistral yolları yarasız halla salıb, güclü külək yüzlərlə ağacı kökündən qoparıb, elektrik xətlərini sıradan çıxarıb və nəqliyyatın hərəkətinə məhdudiyyət qoyulub. Daşqınlara daha çox məruz qalan Herolt departamentində mindən artıq insan təhlükəsiz yerə köçürülüb, 700 ev işıqsız qalıb.

## Ebola virusu Avropaya da gəlib çatdı



Ebola virusunun yayılma arealı getdikcə genişlənir. 40 yaşlı ispaniyalı tibb bacısı Qərbi Afrika hüdudlarından kənarda bu virusa yoluxan ilk şəxs olub.

Bu barədə Euronews telekanalı məlumat yayıb. Tibb bacısı Madrid xəstəxanasında Syerra-Leonedən qayıtmış və sentyabrın sonlarında Ebola virusundan vəfat etmiş keşişə tibbi xidmət göstərib. Onda xəstəliyin ilk əlamətləri iki həftə əvvəl peyda olsa da o, yalnız hərarəti yüksəldikdən sonra həkimə müraciət edib. Hazırda xəstəxana xüsusi nəzarətə götürülüb. Dünya Səhiyyə Təşkilatının son məlumatlarına görə, Ebola virusundan 3500 nəfər ölüb. Alimlər ehtiyat edirlər ki, oktyabrın sonunadək virus Fransa və Böyük Britaniyaya da gəlib çıxa bilər.

## Dağıstanın 5 yaşayış məntəqəsində antiterror əməliyyatı rejimi tətbiq edilib



İTAR-TASS agentliyinin verdiyi xəbərə görə, bu barədə milli antiterror Komitəsinin nümayəndəsi bildirib. Onun sözlərinə görə, yaraqlıların yaxalanması və zərərsizləşdirilməsi üzrə əməliyyat aparılıb.

Bundan əvvəl Dağıstanda bir sıra irimiqyaslı terror aktlarının qarşısının alınması barədə məlumat yayılmışdı. Ölənlər və əməliyyatın nəticəsi barədə agentlik məlumat verməyib.

## İŞİD Suriyanın Türkiyə ilə sərhədindəki Kobani şəhərini ələ keçirib



"İraq Şam İslam Dövləti"nə məxsus silahlılar Suriyanın Türkiyə ilə sərhədində yerləşən Kobani şəhərini ələ keçirib.

APA-nın Türkiyə mətbuatına istinadən xəbərinə görə, Suriya kürdlərinin nəzarətindəki şəhər İŞİD-in 20 gündür davam edən hücumlarına davam gətirə bilməyib və İŞİD şəhərdə öz bayrağını qaldırıb. Artıq Kobanidə atılan mərmilər Türkiyə ərazisinə düşməyə başlayıb və ilkin məlumatlara görə, dörd nəfər yaralanıb.

Türkiyə hökuməti İŞİD təhlükəsinə qarşı təhlükəsizlik tədbirlərini gücləndirib. Sərhəddəki strateji yüksəkliklərə çoxlu sayda tank çıxarılıb və onların lülələri Suriya sərhədinə doğru çevrilib.

## Türk ordusundan güc nümayişi



Türkiyə Silahlı Qüvvələri genişmiqyaslı hərbi təlimlərə başlayıb. ANS PRESS-in məlumatına görə, ordunun döyüş qabiliyyətini yoxlamaq məqsədilə "Atəş Sərbəst 2014" adı altında hərbi təlimlər keçirilir.

Təlimlərə Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları, Hərbi Hava Qüvvələri cəlb olunublar. Manevrləri Baş Qərargah rəisi Necdət Özəl və generallar izləyib. Təlimlər zamanı əsasən yerli istehsal olan hərbi texnika və silahlardan istifadə edilib.

Qeyd edək ki, təlimlər Türkiyə-Suriya sərhədində davam edən gərginliyin fonunda həyata keçirilir.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Hərbi Liseydə Müəllimlər Günü təntənəli keçirildi

**Heydər ƏLİYEV:**
"Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbrlə bizə öyrətmiş və öyrədir".

Yaşanmış min illərin hər layında xalqımızın təfəkkür nurundan, qəlb atəşindən güc alıb toxunulmazlığını saxlayan, müqəddəs tutulan bir hiss, bir duyğu var: hər kəsin öz ustadına, müəlliminə dərin ehtiram və məhəbbət duyğusu. İllər boyu yetirmələrin ömründə yaşanan bu ehtiram, bu məhəbbət duyğusu gələcəyə daşınır; özləri olmayanda da... Millətimizin və Vətənimizin gələcəyinin parlaqlığı naminə hər bir müəllimin fəaliyyəti vətənpərvərliyin təzahürüdür. Müəllimlər yeni cəmiyyət quruculuğunun memarlarıdır. Hər birimizin layiqli vətəndaş kimi yetişməyində müəllimlərin əməyi əvəzsizdir. Müəllim ömrü - əbədi məşəldir, yanır şagirdlərinin yolunda, nur ələyir ömürlərinə zaman-zaman...

Hər il oktyabrın 5-i Müəllimlər Günü kimi qeyd edilir. Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də Müəllimlər Gününə həsr olunmuş təntənəli tədbir keçirildi. Gələcəyin zabitləri - Vətən müdafiəçiləri olacaq müdavimlər ömürlərini həyat yollarında məşələ döndərən müəllimlərini təbrik etmək üçün bir araya toplanmışdılar. Onlar sanki bu məqamın, bu günün təşnəsiydilər.





Hərbi Liseyin Həmkarlar Komitəsinin sədri Sahib Əsədov mərasimin rəsmi hissəsinin açılışını elan etdikdən sonra çıxış üçün sözü liseyin müəllimi Gülsadə Quluzadəyə verdi. G.Quluzadə Müəllimlər Gününün tarixi barədə qısa məlumat verərək dedi ki, 1966-cı ildə ilk dəfə Fransada qeyd olunan 5 oktyabr Müəllimlər Günü dünyanın 100-dən artıq ölkəsində bayram edilir. Müəllim adı dünyanın hər yerində hörmətlə çəkilir. Onlar cəmiyyətin nüfuzlu sənət sahibləri kimi əziz tutulurlar. Cəmiyyət məhz müəllim əməyinin nəticəsində formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu insanlar isə cəmiyyəti daha da inkişaf etdirir.

Tədbir müdavimlərin müəllimlərə təbrik çıxışları və müəllim adına həsr olunmuş şeirlər səsləndirməklə davam etdirildi. Sonra Lisey rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik Rauf Dəmirov Müəllimlər Günü münasibətilə Müdafiə nazirinin və Hərbi Lisey rəisinin əmrlərini oxudu, müəllimlərin təltif olunması üçün Hərbi Liseyin rəisi general-mayor Mirzə Almazova söz verdi. M.Almazov liseyin müəllim kollektivini peşə bayramları münasibətilə təbrik etdi və onlara cansağlığı, şərəfli xidmətlərində uğurlar dilədi. O, gənc nəslin təlim-tərbiyəsi sahəsində səmərəli pedaqoji fəaliyyətlərinə görə liseyin təqaüd yaşı çatan 9 nəfər müəlliminə qiymətli hədiyyələr, digərlərinə fəxri fərmanlar təqdim etdi.

Qocaman müəllimə Səyyarə Tağıyeva, - tədbirə qonaq dəvət olunmuşam, - dedi. - 4 il əvvəl mənə doğma olan bu ocaqdan, təqaüdə çıxmışam. Fəxr edirəm ki, bu gün mənim onlarla yetirməm zabitdir, Vətənin, xalqın keşiyində dayanır.

Sonda bayram tədbiri H.Aslanov adına Mərkəzi Zabitlər Evinin Mahnı və Rəqs Ansamblının konsert proqramı ilə davam etdi.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Müqəddəs Qurban bayramı qeyd edilib







***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, hərbi hissələrdə Qurban bayramı tədbirləri keçirilib.***

Şəmkir rayonunda yerləşən "N" hərbi hissəsində Qurban bayramına həsr olunmuş tədbirdə çıxış edən polkovnik Elşad Əbilov Müdafiə nazirinin və birlik komandirinin bayram təbriklərini, polkovnik Gəray Bağırov isə hərbi hissə komandirinin bayram əmrini şəxsi heyətə çatdırıblar.

Tədbirdə çıxış edənlər Qurban bayramının yaranma tarixi və əhəmiyyətindən söz açıblar. Sonra şəxsi heyətin iştirakı ilə qurbanlar kəsilib.

Tədbir Gəncə Qarnizonu Zabitlər Evinin yaradıcı kollektivinin ifasında təqdim olunan geniş konsert proqramı ilə başa çatıb.



* * *

Qurban bayramı münasibətilə Hərbi Dəniz Qüvvələrində tədbir keçirilib. Azərbaycan Respublikası Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bayram münasibəti ilə təbriki çatdırıldıqdan sonra, bayramın tarixi barədə şəxsi heyətə məlumat verilib.



Sonra adət-ənənəyə uyğun olaraq qurbanlıq heyvanlar kəsilib. Bundan sonra Suraxanı rayonu Qurban Abbasov adına mədəniyyət sarayının bədii kollektivi və "Xəzər" qiraət dərnəyinin üzvləri şəxsi heyət qarşısında konsert proqramı ilə çıxış ediblər.

Tədbirin sonunda iştirakçılara Hərbi Dəniz Qüvvələri Komandanlığı adından fəxri fərmanlar təqdim olunub.

* * *

"N" hərbi hospitalında Qurban bayramına həsr olunmuş tədbir keçirilib.

Tədbirdə çıxış edənlər Qurban bayramının yaranma tarixi və əhəmiyyətindən söz açıblar. Sonra şəxsi heyətin iştirakı ilə qurbanlar kəsilib.

Hərbi hospitalda müalicə olunan hərbi qulluqçulara bayram sovqatı təqdim edilib və Gəncə Qarnizonu Zabitlər Evinin yaradıcı kollektivi şəxsi heyət qarşısında konsert proqramı ilə çıxış edib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**



Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu

# Vətənə qayıdıb

Əfqanıstan İslam Respublikasında Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) tərkibində fəaliyyət göstərən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 23 nəfərdən ibarət qrupu plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 20 noyabr 2002-ci il tarixdən başlayıb.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 94 nəfərdən ibarət hərbi qulluqçusu, 2 hərbi həkimi və 2 mühəndis-istehkam ixtisası üzrə zabiti Əfqanıstanda beynəlxalq sülhyaratma missiyasında iştirak edir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Fiziki hazırlıq*

# "İdman cəmiyyət üçün ən vacib sahədir"

***Hərbi hissədə ezamiyyətdə olarkən əsgərlərin fiziki hazırlığı ilə də maraqlandım. Leytenant Valeh Bədrəddinlinin sözlərinə görə, hərbi hissədə idmana ciddi diqqət yetirilir. Onu da öyrəndim ki, əsgərlərin sırasında dünyamiqyaslı yarışların iştirakçısı və qalibi olan əsgər də var.***

Əsgər Yusif Həvilov hərbi xidmətə Goranboy rayonundan çağırılıb. O, 10 ilə yaxın boksla məşğul olub.

- 2012-ci ildə Avropa çempionatına yollandım. Daha əvvəl 7 dəfə Azərbaycan çempionu olmağıma baxmayaraq həyəcanlı idim. Çempion olmaq, bayrağımızı dalğalandırmaq, himnimizi beynəlxalq arenada səsləndirmək istəyirdim. Və bunu bacardım. 1-ci yerə layiq görüldüm. 2013-cü ildə isə Asiya çempionu olmağım və dünya çempionatında 2-ci yeri tutmağım mənim üçün çox sevindirici oldu. Qazandığım uğurlar içərisində ən mühümü isə Milli Qəhrəmanımız Mübariz İbrahimovun xatirəsinə keçirilən, 24 ölkənin iştirak etdiyi turnirdə birincilik əldə etməyim oldu.



Əsgərlər Elməddin Cəfərov və Yavər Qurbanzadə də söhbətə qoşuldular. E.Cəfərov Kəpəz futbol klubunda 3 ilə yaxın oynadığını, Y.Qurbanzadə isə həvəskar idmanla məşğul olduğunu bildirdi.

"İdman cəmiyyət üçün ən vacib sahədir. İdmanla məşğul olan hər bir insan, hətta adi bədən tərbiyəsi ilə məşğul olan hər kəs tamam sağlam olur. Sağlam olmaq üçün həkimə müraciət etmək, dava-dərman qəbul etmək, iynə vurdurmaq lazım deyildir. Sadəcə, hər gün idmanla məşğul olun. Mən bir dəfə demişəm, yenə deyirəm: mən gənc vaxtlarımdan idmanı sevmişəm, idmanla məşğul olmuşam, bu gün də məşğul oluram. Ona görə də görürsünüz, sizin qabağınızda belə dayanmışam. Ona görə hamınızı idmanla məşğul olmağa dəvət edirəm. Özü də burada gənclərin öz yeri, orta nəslin, yaşlı nəslin də öz yeri var".

Ulu öndərimiz Heydər Əliyevin çıxışlarından birində söylədiyi bu ifadə ilə idmanın nə dərəcədə əhəmiyyətli olduğunu xatırlatmışdı.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## Boks üzrə Azərbaycan kuboku yarışları başlayıb



Oktyabrın 7-də "Sərhədçi" İdman Olimpiya Mərkəzində boks üzrə Azərbaycan kuboku yarışları başlayıb. AzərTAc xəbər verir ki, Azərbaycan milli komandasına seçim xarakteri daşıyan turnirdə 100-ə yaxın idmançı gücünü sınayır. APB (AİBA Pro Boxing) yarışlarında çıxış edəcək Cavid Çələbiyev (56 kq) və Məhəmmədrəsul Məcidov istisna olmaqla, digər aparıcı boksçular Azərbaycan kubokunda rinqə çıxacaq. "Baku Fires" klubunun üzvü, dünya və Avropa çempionu Albert Səlimov da ilk dəfə ölkəmiqyaslı yarışda mübarizə aparacaq. Bundan başqa, Rusiya millisinin heyətində gənclər arasında Avropa çempionu olmuş, artıq 3 ildir "Baku Fires"in üzvü kimi WSB liqasında çıxış edən Məhəmməd Qurbanov da (56 kq) turnirdə nəyə qadir olduğunu göstərəcək.

## Velosiped idmanı üzrə Azərbaycan çempionatının qalibləri müəyyənləşdi



Quba, Qusar və Xaçmaz rayonları ərazisində 100-ə yaxın velosipedçinin iştirak etdiyi çoxgünlük ötüşmələr üzrə Azərbaycan çempionatına yekun vurulub.

AzərTAc xəbər verir ki, yarışa ilk dəfə olaraq Bakı və Sumqayıt velosipedçiləri ilə yanaşı, Oğuz rayonunda fəaliyyət göstərən velosiped bölməsinin idmançıları da qatılıb. Açıq çempionatda Gürcüstan yığma komandasının 10 üzvü də medallar uğrunda mübarizə aparıb. Velosipedçilər dörd gün ərzində üç kateqoriya üzrə fərdi və qrup ötüşməsi mərhələlərində yarışıblar. Hər üç kateqoriyada çempionatın birincisi Azərbaycan idmançıları olub. Xankişi İskəndərov U-15, Kərim Şirəliyev U-17 kateqoriyası üzrə qalib adını qazanıb. ELİT kateqoriyasında Elgün Əlizadə ən yüksək nəticə göstərib.

## Bakıda F1 üzrə Avropa Qran-pri yarışlarının marşrutu müəyyənləşib




2016-cı ildə ilk dəfə Azərbaycanda Formula-1 üzrə Avropa Qran-pri yarışları keçiriləcək. Uzun sürən müzakirələrdən sonra turnirin marşrutu müəyyənləşib. AzərTAc xəbər verir ki, bu barədə oktyabrın 7-də "Fairmont Baku" mehmanxanasında keçirilən mətbuat konfransında gənclər və idman naziri Azad Rəhimov məlumat verib. Qeyd edib ki, turnir Bakının mərkəzində keçiriləcək və paytaxtımızın gözəlliyi bütün dünyaya nümayiş olunacaq. Qran-pri yarışlarında birinci Avropa Oyunları üçün yaradılan infrastrukturdan istifadə ediləcək və Azadlıq meydanında müvəqqəti qurğular hazırlanacaq.

## Ermənini belə nokauta saldıq



Azərbaycanlı idmançı erməni rəqibini nakautla məğlub edib. ANS PRESS-in verdiyi məlumata görə, Gürcüstanın paytaxtı Tbilisidə erməni idmançı ilə qarşılaşan Şirxan Novruzəliyev rəqibini nakauta salıb. Qarışıq döyüş növləri üzrə açıq turnirdə 4 ölkə idmançıları iştirak ediblər. Yığmamızın heyətində Şəmkir MMA komandasının 4 üzvü də çıxış edib. İdmançılarımızın dördü də medal qazanıb. Erməni rəqibi üzərində layiqli qələbə qazanan idmançımız finalda Gürcüstan təmsilçisini də məğlub edərək öz çəki dərəcəsində birinci olub.

## Beşbarmaq dağında keçirilən qayayadırmanma yarışı başa çatıb



Siyəzən rayonunda Beşbarmaq dağında təbii qayalarda keçirilən qayayadırmanma üzrə açıq respublika çempionatı başa çatıb. 80-ə yaxın idmançının iştirak etdiyi çempionat kişilər və qadınlar arasında 3 mərhələdə (təsnifat, yarımfinal, final) keçirilib. Maraqlı və gərgin mübarizə şəraitində keçən yarışın final mərhələsində idmançılar qarşılarına qoyduqları məqsədə müvəffəq olmaq üçün qızğın mübarizə aparıblar.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Gizir Rüstəmov Səlim İlqar oğluna 2014-cü ilin yanvarında verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 314
Nüsxə 4570